**Ənənəvi şəkildə**

Azərbaycan Respublikası  Auditorlar Palatası Şurasının 2025-ci il 02 may tarixli 376/4 nömrəli "Auditor adı almaq üçün imtahanların proqramının təsdiq edilməsi barədə" qərarı təsdiq edilmişdir.

**İmtahanın formatı**

İmtahanın formatı: birmərhələli test imtahanı

1. Auditor adı almaq üçün keçirilən imtahan birmərhələli test imtahanı formasında təşkil olunur.
2. İmtahanın müddəti iki saatdır.
3. İmtahan biletinə hər bir imtahan iştirakçısı üçün 120 test sualı daxil edilir.
4. Hər bir iştirakçı xüsusi kod vasitəsilə şəxsi kabinetinə daxil olaraq ona ayrılmış imtahan suallarını elektron sistem üzərindən cavablandırır.
5. İmtahan Komissiyası imtahan verən şəxsin test vərəqindəki hər bir sualın düzgün cavabını 1 (bir) balla, səhv cavabını isə 0 (sıfır) balla qiymətləndirir.
6. İmtahan biletinə daxil olan bütün sualların düzgün cavablarına görə maksimum mümkün nəticə 120 bal təşkil edir.
7. İmtahan biletindəki 120 sualın ən azı 80 faizinə düzgün cavab vermək şərtilə 96 bal və daha çox nəticə toplamış şəxslər imtahanı müvəffəqiyyətlə vermiş hesab olunurlar.
8. İmtahanın keçirilməsi üçün ayrılmış vaxt başa çatdıqdan sonra imtahan verən şəxs kompüterin monitorunda yerləşən "İmtahanı sonlandır" düyməsini basmaqla imtahanı yekunlaşdırır. İmtahan başa çatdıqdan sonra sistemdə imtahan verən şəxsin topladığı yekun bal əks olunur.
9. İmtahanda sonadək iştirak etmiş şəxslərin topladıqları ballar imtahan başa çatdıqdan sonra üç saat müddətində İmtahan Komissiyası tərəfindən rəsmi qaydada elan edilir.
10. Auditor adı almaq üçün keçirilən imtahanlarda iştirak etmiş və ACCA, CIPA, CPA və CAP beynəlxalq peşəkar sertifikatlarına malik olan şəxslərin imtahan nəticələri hesablanarkən aşağıdakı güzəştlər tətbiq edilir:

- ACCA sertifikatına malik olan şəxslərə – 10 bal;
- CIPA və CPA sertifikatlarına malik olan şəxslərə – 5 bal;

- CAP sertifikatına malik olan şəxslərə – 3 bal.

Auditor adı almaq üçün müraciət etmiş şəxslər aşağıdakı sahələr üzrə ixtisas imtahanlarını verməlidirlər:

- Kiçik və Orta Sahibkarlıq Subyektləri üçün Maliyyə Hesabatlarının Beynəlxalq Standartları (KOSMHBS);
- Azərbaycan Respublikasının Vergi Məcəlləsi;
- Beynəlxalq Audit Standartları (BAS);
- Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə və hədəfli maliyyə sanksiyaları.